ADA Məktəb ∘ School

## MƏKTƏB HAQQINDA

2019-cu ildə yaradılan ADA Məktəbi, 10-cu və 11-ci sinif şagirdləri üçün ingilis dilində təhsil təklif edir. Məktəbin tədris proqramı Azərbaycan Respublikasının milli kurrikulumuna və ADA Universitetinin təcrübəsinə əsaslanır. Tədris proqramı ümumi biliklərlə yanaşı, səriştə və dəyərlərin formalaşmasını da təmin edir.

Məktəbdə şagirdlər həm akademik baxımdan universitet illərinə daha hazırlıqlı yetişdirilir, həm də XXI əsrin tələblərinə cavab verən kommunikasiya, kreativlik, komanda işi, kritik düşüncə kimi bacarıqlarını inkişaf etdirirlər.

## DƏRS PROQRAMI

### Birinci il – 10-cu sinif

#### 1-ci Payız semestri

| Dərsin adı | Həftəlik dərs saatı |
|---|---|
| Azərbaycan dili və ədəbiyyatı | 3 |
| İngilis dili | 5/10 |
| Riyaziyyat | 7/8 |
| Fizika | 2 |
| Kimya | 2 |
| Biologiya | 2 |
| Azərbaycan Tarixi | 2 |
| Dünya Tarixi | 1 |
| Coğrafiya | 2 |
| Xarici dil: Rus / Fransız / Alman | 2 |
| Kompüter və texnologiya elmləri | 2 |
| My ADA - Mənim ADAm | 1 |
| Dərsdənkənar fəaliyyətlər | 1 |

#### 2-ci Yaz semestri

| Dərsin adı | Həftəlik dərs saatı |
|---|---|
| Azərbaycan dili və ədəbiyyatı | 3 |
| İngilis dili | 5/8 |
| Riyaziyyat | 7/8 |
| Fizika | 2 |
| Kimya | 2 |
| Biologiya | 2 |
| Azərbaycan Tarixi | 2 |
| Dünya Tarixi | 1 |
| Coğrafiya | 2 |
| Xarici dil: Rus/ Fransız/ Alman | 2 |
| Kompüter və texnologiya elmləri | 2 |
| Azərbaycan incəsənəti və mədəniyyəti | 1 |
| Dərsdənkənar fəaliyyətlər | 1 |

### İkinci il – 11-ci sinif

#### 3-cü Payız semestri

| Dərsin adı | Həftəlik dərs saatı |
|---|---|
| Azərbaycan dili və ədəbiyyatı | 3 |
| Akademik məqsədlər üçün İngilis dili | 5 |
| Riyaziyyat | 8 |
| Fizika | 2 |
| Kimya | 2 |
| Biologiya | 2 |
| Azərbaycan Tarixi | 2 |
| Dünya Tarixi | 1 |
| Coğrafiya | 2 |
| Xarici dil: Rus/ Fransız/ Alman | 2 |
| Hesablama təfəkkürü | 2 |
| Karyera təcrübəsi | 2 |
| Dərsdənkənar fəaliyyətlər | 1 |

#### 4-cü Yaz semestri

| Dərsin adı | Həftəlik dərs saatı |
|---|---|
| Azərbaycan dili və ədəbiyyatı | 3 |
| Akademik məqsədlər üçün İngilis dili | 5 |
| Riyaziyyat | 8 |
| Fizika | 2 |
| Kimya | 2 |
| Biologiya | 2 |
| Azərbaycan Tarixi | 2 |
| Dünya Tarixi | 1 |
| Əhali və resurslar | 2 |
| Hesablama təfəkkürü | 2 |
| Akademik yazıya giriş | 2 |
| Dərsdənkənar fəaliyyətlər | 1 |

## QƏBUL QAYDALARI

ADA Məktəbi yalnız 10-cu sinfə müraciətləri qəbul edir. 2023-2024 tədris ili üçün sənədlərin qəbul prosesi 2023-cü il İyunun 20-nə qədər aparılır.

ADA Məktəbinə qəbul üç mərhələdən ibarətdir:

1. İngilis dili imtahanı;
2. Onlayn ərizə formasının doldurulması və sənədlərin onlayn şəkildə yüklənməsi (İngilis dili imtahanın nəticəsi daxil olmaq şərti ilə);
3. Riyaziyyat imtahan nəticələrinin təqdim edilməsi;

**Birinci mərhələ**

ADA Məktəbinə qəbul üçün aşağıdaki testlərin nəticələri ilə təmin edilən müəyyən səviyyədə İngilis dili biliyi tələb olunur

- Duolingo onlayn İngilis dili testi (80 və yuxarı) (ətraflı məlumat üçün buradan oxuyun)
- IELTS Academic (5.0 və yuxarı)
- TOEFL IBT (55 və yuxarı)

**İkinci mərhələ**

ADA Məktəbinə müraciət etmək üçün Elektron ərizə forması aşağıdakı sənədlərlə birlikdə doldurulmalıdır:

- 9-cu sinifdə oxuduğuna dair məktəbdən arayış;
- Şəxsiyyət vəsiqəsi (Azərbaycan vətəndaşları üçün) və yaxud MYİ/Pasport (xarici vətəndaşlar üçün)
- Doğum haqqında şəhadətnamə
- Fotoşəkil (3x4)
- İngilis dili imtahanın nəticəsi
- Ərizə haqqı 50 AZN (Ərizənin sonunda yalnız kart vasitəsilə ödənilməlidir).

*Elektron Ərizə formasının doldurulması üzrə təlimat videosuna buradan baxa bilərsiniz.*

**Üçüncü mərhələ**

ADA Məktəbinə müraciət edən namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən 9-cu siniflər üçün buraxılış imtahanında riyaziyyat üzrə topladığı balı təqdim etməlidir.

Müsabiqədə iştirak etmək üçün riyyaziyat üzrə minimum **60 bal** toplamaq tələb olunur.

Xaricdə oxuyan şagirdlər və ya 9-cu sinfi xarici ölkədə bitirən namizədlər riyazi bilikləri yoxlamaq üçün ADA Məktəbi tərəfindən təşkil olunan riyaziyyat müsahibəsinə dəvət olunacaqlar.

## TƏHSİL HAQQI

ADA Məktəbində təhsil ödənişlidir. İllik təhsil haqqı 8000 manatdır. Bura dərsliklər, dərs ləvazimatları, yeməк və digər xidmətlər üzrə xərclər daxil deyil.

## YÜKSƏK AKADEMİK GÖSTƏRİCİLƏR ƏSASLI TƏQAÜD 2023-2024 TƏDRİS İLİ

Bu təqaüdlər ADA Məktəbinə qəbul olunmazdan əvvəl yüksək akademik göstəriciləri olan şagirdlərə şamil olunur.

9-cu sinifdə Respublika fənn olimpiadalarında 1-ci, 2-ci və 3-cü yeri qazanmış şagirdlər, yalnız ADA məktəbində təhsil aldığı müddətdə illik 3.0 ortalama qiymət balını (GPA) saxladıqları təqdirdə təhsil haqqından 100% azad olunacaqlar. Yuxarıda göstərilən tələblərə cavab verməyən şagirdlər növbəti tədris ilində təqaüd almaq hüququnu itirəcəklər

## ADA MƏKTƏBİNDƏN ADA UNİVERSİTETİNƏ QƏBUL QAYDALARI

ADA Universitetinin bakalavr pilləsinə qəbul prosesi yüksək rəqabətlidir. Bununla belə, ADA Məktəbinin məzunları imtiyazlı qəbul prosesindən faydalanırlar.

ADA Məktəbinin məzunlarından DİM bakalavr səviyyəsinə qəbul imtahanı tələb olunmur. Onlar ADA Universitetinin bakalavr proqramına yalnız ADA Məktəbinin yekun akademik nəticələrinə əsasən qəbul olunurlar. Ətraflı məlumat üçün buradan oxuyun.

ADA Məktəbinin məzunları ADA Universitetinin bakalavr proqramlarına müraciət etmək üçün aşağıdakı tələblərə (hər 3 tələbə) cavab verməlidirlər:

**1. Ümumi orta bal tələbi**

11-ci sinif üzrə illik ümumi orta bal (CGPA) minimum 2.0 olmalıdır:

- İllik ümumi orta balın 85%-ni şagirdin son iki semestr ərzində topladığı yekun qiymətlər təşkil edir;
- İllik ümumi orta balın 15%-ni Dövlət İmtahan Mərkəzi tərəfindən Azərbaycan dili (7%) və riyaziyyat (8%).

**2. Ayrı fənlər üzrə illik qiymət tələbi**

11-ci sinfin sonunda şagirdlər ADA Universitetinin proqram və ixtisas seçimindən asılı olaraq aşağıda sadalanan fənlərdən illik minimum C- qiymətini almalıdılar:

- Biznes Fakültəsi: Riyaziyyat
- İctimai və beynəlxalq münasibətlər Fakültəsi: Dünya tarixi və Azərbaycan tarixi;
- İT və Mühəndislik Fakültəsi: Riyaziyyat və İnformatika

**3. Azərbaycan dili tələbi**

11-ci sinifdə təhsil alan şagirdlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən Azərbaycan dili dövlət dili kimi imtahanından iştirak edərək, minimum 50% bal toplamalıdırlar. Bu imtahanın tarixləri və keçid balı DİM tərəfindən müəyyənləşdirilir.

Bütün uyğun namizədlər əvvəlcə illik ümumi orta qiymətlərinə (CGPA), sonra isə yuxarıda sadalanan müvafiq fənlərin illik qiymətlərinə əsasən siyahıya alınır. Namizədlər ixtisas seçimlərində verdiyi üstünlüyə və ADA Məktəbi məzunları üçün nəzərdə tutulmuş yerlərin sayına əsasən qəbul edilir.

ADASchool ADASchool ADASchool
Əhmədbəy Ağaoğlu küç. 61, Bakı, Azərbaycan
(+994 12) 437 32 35 daxili 306
school@ada.edu.az | ada.edu.az/school